MÜBARİZ KEŞİKDƏ

14 noyabr 2019-cu il
Cümə axşamı

№ 44 (3459)

1933-cü ildən çıxır

www.mk.mia.gov.az

Qiyməti 40 qəpik

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI



**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

# PREZİDENT İLHAM ƏLİYEV VƏ BİRİNCİ XANIM MEHRİBAN ƏLİYEVA BAKININ XƏTAİ RAYONUNDA AĞACƏKMƏ AKSİYASINDA İŞTİRAK EDİBLƏR

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 11-də Heydər Əliyev Fondu tərəfindən Bakının Xətai rayonunda salınan yeni "Gənclik" parkında "Təbiət naminə birləş, Həyat naminə birləş!" layihəsi çərçivəsində ağacəkmə aksiyasında iştirak ediblər.

Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov dövlətimizin başçısına və birinci xanıma Xətai rayonunda Heydər Əliyev Fondu tərəfindən salınacaq yeni park barədə məlumat verərək deyib:

-Cənab Prezident, bura parkın ən hündür nöqtəsidir. Buradan bütün ərazi görünür. Parkın ərazisi 37,2 hektardır.

**Prezident İlham Əliyev:** Buradan gözəl mənzərə açılır.

**Anar Ələkbərov:** Elədir. Mehriban xanımın tapşırığına əsasən biz buraları qoruyub saxlamışıq və çalışırıq ki, tezliklə bu parkı insanların istifadəsinə verək. Bu ərazinin yeni planı nəzərdə tutulub. Burada böyük, özü də sadə bir park olacaq.

**Birinci xanım Mehriban Əliyeva:** Təbii park.

**Prezident İlham Əliyev:** Bəli, təbii.

**Anar Ələkbərov:** İnsanların asudə vaxtlarının səmərəli təşkili üçün burada bütün şərait yaradılacaq.

**Prezident İlham Əliyev:** İdman meydançaları da.

**Anar Ələkbərov:** Əsasən idman meydançalarına, idman qurğularına üstünlük veriləcək. Burada insanların daha çox təbiət qoynunda idman etmələri üçün xüsusi zolaqlar, velosiped yolları, sadə pikniklər üçün yerlər olacaq. İnsanların vaxtlarını, bayramlarını burada keçirmələri üçün bütün imkanlar yaradılacaq.

**Prezident İlham Əliyev:** Çox yaxşı. Burada iaşə obyektləri də olmalıdır ki, vətəndaşlar gələndə onlardan istifadə edə bilsinlər.

**Anar Ələkbərov:** Elədir, cənab Prezident.

**Prezident İlham Əliyev:** Amma əlbəttə ki, bu təbii mənzərə qorunmalıdır. İndi burada yeni ağaclar əkilir.

**Anar Ələkbərov:** Bu gün 30 minə yaxın ağac əkiləcək. Sizin dəstəyinizə böyük ehtiyacımız var ki, biz bu parkı salaq və insanların istifadəsinə verək.

**Prezident İlham Əliyev:** Hesab edirəm ki, park qısa müddət ərzində tamamilə abadlaşdırılacaq və vətəndaşlar üçün burada gözəl imkanlar yaradılacaq.



**Birinci xanım Mehriban Əliyeva:** Suvarma sistemi necə olacaq?

**Anar Ələkbərov:** Artıq onu həll edirik. Bu gün ağacları əkirik deyə biz artıq Sizin göstərişinizlə suvarma sistemini də çəkdik. Amma təbii ki, burada əlavə işlər var. İşıqlandırma sistemlərinə yenidən baxılmalıdır. Xüsusi suvarma sistemləri qurulmalıdır. Onu təşkil edəcəyik.

**Prezident İlham Əliyev:** Burada zeytun ağacları da görürəm. Vaxtilə əkilib?

**Anar Ələkbərov:** Bəli, vaxtilə burada çoxlu zeytun ağacı olub, məhsul da yığılıb.

**Prezident İlham Əliyev:** İndi də əkmək lazımdır, əsasən zeytun və şam ağacları.

**Anar Ələkbərov:** Biz burada Eldar şamına da üstünlük veririk. Əvvəllər burada zeytun ağacları ilə bərabər, Eldar şamları da çox idi. Ona görə bu qaydada davam edəcəyik.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva parkda ağac əkiblər.

Dövlətimizin başçısının rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Prezident İlham Əliyev Azərbaycan vətəndaşının sosial məsələlərinin həllini, onların sağlamlıqlarının qorunmasını prioritet məsələlərdən biri kimi müəyyənləşdirib. Bu istiqamətdə indiyədək çox sayda layihələr icra olunub. Bu layihələr sırasında əhalinin sağlam ekoloji mühitdə yaşaması məsələsinə də xüsusi diqqət yetirilir. Ölkəmizdə həyata keçirilən ekoloji siyasət nəticəsində yeni yaşıllıqların salınması, mövcudlarının qorunması ilə yanaşı, eyni zamanda, əvvəllər heç bir yaşıllıq olmayan sahələrdə də ağacəkmə aksiyalarının keçirilməsi Azərbaycanda ekoloji durumun yaxşılaşdırılmasına mühüm töhfələr verir, yaşıllıq zonalarının sahəsini artırır.

Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılması üçün dövlət səviyyəsində həyata keçirilən layihələrə birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da xüsusi diqqət yetirir. Ölkəmizdə yeni yaşıllıqların salınmasında və mövcud yaşıllıq sahələrinin qorunmasında Fondun töhfəsi olduqca böyükdür. Bu məsələdə Heydər Əliyev Fondunun vitse-prezidenti, İDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü və dəstəyi ilə ekoloji durumun daha da yaxşılaşdırılması, yeni yaşıllıqların salınması məqsədilə icra olunan layihələrin də mühüm rolu var. Bu baxımdan Heydər Əliyev Fondunun "Təbiət naminə birləş, Həyat naminə birləş!" layihəsi xüsusi əhəmiyyət daşıyır.

Aksiyada gənclər, rayon sakinləri, Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin könüllüləri fəal iştirak ediblər.

Bakıda və respublikanın müxtəlif rayonlarında ağacəkmə aksiyalarının təşkilini nəzərdə tutan layihə ətraf mühitin mühafizəsinin vacibliyini insanların, xüsusilə gənc nəslin diqqətinə çatdırır və onları ekoloji problemlərin aradan qaldırılması istiqamətində mübarizədə birgə fəaliyyətə səsləyir. Layihənin məqsədi, eyni zamanda, insanları nəcib təşəbbüslər ətrafında birləşdirməyə yönəlib. Dövlət Bayrağı bayramının qeyd edildiyi günlərdə və 12 noyabr - Konstitusiya Günü ərəfəsində təşkil olunan bu aksiya həm də vətəndaşların ölkə üçün vacib layihə ətrafında birləşməsi ilə yadda qaldı.

Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ağacəkmə aksiyasının iştirakçıları ilə görüşüb söhbət ediblər.

Sonda xatirə şəkilləri çəkdirilib.

Qeyd edək ki, ağac əkilən ərazidə əvvəlcə müvafiq iməcilik təşkil olunub, təmizlik işləri aparılıb.

Aksiya çərçivəsində ağacların əkilməsi, sulanması, ərazinin tullantılardan təmizlənməsi ilə yanaşı, buradakı mövcud ağaclarda quş yuvaları və yem qabları quraşdırılıb.

Tədbir çərçivəsində ərazidə müxtəlif əyləncəli və musiqili proqramlar, yarışlar təşkil olunub.

İştirakçılar aksiyaya qatılmaqdan məmnun qaldıqlarını bildiriblər.

***Dövlətimizin başçısı noyabrın 6-da Neft Daşlarının 70 illik yubileyi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Ölkəmizin rəhbəri noyabrın 6-da Dövlət Neft Şirkəti işçilərinin mükafatlandırılması haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Noyabrın 6-da dövlətimizin başçısı Azərbaycan Respublikasının televiziya və radio işçilərinə fəxri adların verilməsi haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 7-də Argentina Respublikasının Prezidenti vəzifəsinə seçilməsi münasibətilə zati-aliləri cənab Alberto Fernandesə təbrik məktubu ünvanlayıb.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı noyabrın 7-də Müstəqillik Günü münasibətilə Kambocanın Kralı Əlahəzrət Norodom Sihamoniyə təbrik məktubu ünvanlayıb.***

❖❖❖❖❖

**Ölkəmizin rəhbəri noyabrın 8-də Ağcabədi rayonunda "ASAN xidmət" mərkəzinin layihələndirilməsi və tikintisinin başa çatdırılması ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Noyabrın 12-də Azərbaycan Prezidenti İlham Əliyev "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 12-də Birləşmiş Ərəb Əmirliklərinin İqtisadiyyat naziri Sultan bin Səid əl-Mansurinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 6-da Neft Daşlarının 70 illiyi münasibətilə Azərbaycan neftçilərinə təbrik məktubu göndərib.***

***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva 12 noyabr - Konstitusiya Günü münasibətilə Azərbaycan xalqını təbrik edib.***

# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATLARI

**Kütləvi informasiya vasitələrində əvvəlcədən verilmiş elana uyğun olaraq, noyabrın 8-də Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov Əlahiddə Çevik Polis Alayında və Bakı Şəhər Baş Polis İdarəsinin tabeli orqanlarında vakant olan post-patrul xidmətinin polis nəfəri vəzifələrində xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib.**

Aidiyyatı baş idarə və idarə rəislərinin də iştirak etdikləri tədbirdə nazir ayrı-ayrılıqda hər bir gəncin zahiri görkəmi, fiziki hazırlığının vəziyyəti, ümumi bilik səviyyəsi və dünyagörüşü ilə maraqlanıb. Ümumilikdə 368 iddiaçının arasından daha hazırlıqlı olan 238 nəfər seçilərək onların daxili işlər orqanlarında xidmətə qəbul olunmaları üçün Baş Kadrlar İdarəsinin rəhbərliyinə müvafiq tapşırıqlar verilib.

Namizədlər qarşısında çıxış edən nazir daxili işlər orqanlarında xidmətə qəbulun şəffaflıq, aşkarlıq və ədalət prinsipləri əsasında keçirildiyini vurğulayıb. General-polkovnik V.Eyvazov ulu öndər Heydər Əliyev və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin hər bir ölkənin gələcəyinin, inkişafının geniş intellektual səviyyəli, müasir texnologiyaların sirlərinə bələd olan, mükəmməl təhsil almış savadlı, vətənpərvər, milli-mənəvi dəyərlərə, dövlətçiliyə sadiq, müstəqilliyimizi, milli maraqlarımızı hər şeydən uca tutan gənclərdən asılı olduğunu dəfələrlə vurğuladıqlarını məmnunluqla xatırladıb. Belə yüksək mənəvi, işgüzar keyfiyyətlərə malik kadrların dövlət idarəçiliyində daha geniş şəkildə təmsil olunmaları, o cümlədən daxili işlər orqanlarında xidmətə qəbul üçün hər zaman əhəmiyyətli addımların atıldığını, hazırkı seçimlərin də göstərilən sahədə həyata keçirilən məqsədyönlü dövlət siyasətinin növbəti bariz nümunəsi olduğunu diqqətə çatdırıb.



Nazir xidmətə qəbul üçün seçilən gəncləri təbrik edərək gələcək xidməti fəaliyyətlərində polisin yüksək adını və mundirin şərəfini uca tutmalarını, bilik və bacarıqlarını, dünyagörüşlərini, təcrübələrini daim artırmalarını, öz üzərilərində səylə çalışmalarını, insan və vətəndaş hüquq və azadlıqlarına, onların şərəf və ləyaqətinə hörmətlə, həmçinin vətəndaşların müraciətlərinə xüsusi diqqət və həssaslıqla yanaşmalarını, bir sözlə, vətəndaş məmnunluğunun təmininə öz layiqli töhfələrini vermələrini tövsiyə edib, gələcək fəaliyyətlərində onlara uğurlar arzulayıb.

***Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov noyabrın 13-də Fransanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Zakari Qrosu qəbul edib.***

***Qonağı salamlayan nazir yeni təyinat münasibəti ilə onu təbrik edib, ölkəmizdəki diplomatik işində ona uğurlar arzulayıb, fəaliyyəti müddətində Azərbaycan-Fransa münasibətlərinin daha da genişlənəcəyinə ümidvar olduğunu bildirib.***

***İkitərəfli münasibətlərin zəngin ənənələrə malik olduğunu, bu əlaqələrin qurulmasında ulu öndər Heydər Əliyevin danılmaz xidmətlərini məmnunluqla xatırladan general-polkovnik Vilayət Eyvazov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident xanım Mehriban Əliyevanın ölkələrimiz və xalqlarımız arasındakı dostluq və strateji tərəfdaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsinə, qarşılıqlı faydalı işbirliyinin nəinki qorunub-saxlanılmasına, davamlı və hərtərəfli inkişafına da böyük önəm verdiklərini, bu ali diqqət, eləcə də dövlət başçılarının siyasi iradəsi və qarşılıqlı səfərləri nəticəsində Azərbaycan-Fransa əməkdaşlığının bütün sahələrdə keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu vurğulayıb.***

*Ardı 2-ci səhifədə.*

# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATLARI

**Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov noyabrın 7-də İran İslam Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Cavad Cahangirzadəni qəbul edib.**

Qonağı salamlayan nazir iki qonşu və dost dövlət arasındakı münasibətlərin dərin tarixi köklərə malik olduğunu, əsrlər boyu bərabər yaşayan xalqlarımızı elmi, mənəvi, mədəni tellər birləşdirdiyini, bu gün ikitərəfli əlaqələrin yüksək səviyyədə inkişaf etdiyini, Azərbaycan və İran Prezidentləri arasındakı səmimi dostluğun və qarşılıqlı səfərlərin hərtərəfli əməkdaşlığa böyük töhfə verdiyini məmnunluqla xatırladıb.

General-polkovnik Vilayət Eyvazov iki ölkənin Daxili İşlər nazirlikləri arasında mövcud olan əlaqələrə toxunaraq nazirlər, o cümlədən digər rəhbər vəzifəli şəxslərin başçılıq etdikləri heyətlər səviyyəsində səfərlərin, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstəyin nəinki DİN-lər, həmçinin digər hüquq-mühafizə orqanları arasında sıx əlaqələrin mövcudluğundan xəbər verdiyini bildirib.

Qlobal xarakter almış transmilli mütəşəkkil cinayətkarlığın təhlükəli növlərinə, xüsusən narkotiklərin qanunsuz dövriyyəsinə və qaçaqmalçılığına qarşı mübarizənin vəziyyətinə toxunan cənab Vilayət Eyvazov əməkdaşlığın böyük imkanlara malik olduğunu, bu sahədə məlumat və təcrübə mübadiləsinin, yeni istiqamətlərin müəyyənləşdirilməsinin və birgə səylərin zəruriliyini qeyd edib.

Görüşdə cinayətkarlıqla mübarizə sahəsində nazirliklərimizin potensialının geniş olduğu, ikitərəfli əlaqələrin daha da inkişafının xalqlarımızın rifahı naminə regionda sülh və sabitlik işinə xidmət edəcəyi fikri ifadə olunub.

Səfir Cavad Cahangirzadə səmimi qəbula görə nazirə təşəkkür edib, dövlətlərimizin müvafiq strukturları arasında əlaqələrin daha da dərinləşdirilməsindən məmnunluğunu, bu yöndə səylərini əsirgəməyəcəyini vurğulayıb.



**Noyabrın 7-də Daxili İşlər Nazirliyində müxtəlif illərdə dövlət ali təhsil müəssisələrini bitirmiş, sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət edən əməkdaşların respublikanın şəhər, rayon polis orqanlarında vakant olan zabit yerlərinə təyin edilmələrinə həsr olunmuş tədbir keçirilib.**

**Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov təyinatın şəffaflıq, aşkarlıq və ədalət prinsipləri əsasında reallaşdığını xatırladıb və son illər bu praktikadan geniş istifadə olunduğunu bildirib. Nazir qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkəmizin parlaq gələcəyinin yüksək intellektə, geniş dünyagörüşünə, dərin biliyə və işgüzarlığa malik, mükəmməl təhsil almış, dövlətçiliyə sadiq, vətənpərvər gənclərdən asılı olduğunu dəfələrlə vurğulayıb.**

Belə yüksək mənəvi və iş keyfiyyətlərinə malik gənclərin dövlət idarəçiliyində, o cümlədən daxili işlər orqanlarında xidmətdə irəli çəkilmələri, onların ölkəmizin ictimai-siyasi həyatında daha geniş şəkildə təmsil olunmaları üçün zəruri addımların atıldığını deyən general-polkovnik Vilayət Eyvazov hazırkı tədbirin də göstərilən sahədə həyata keçirilən məqsədyönlü siyasətin növbəti təzahürü olduğunu vurğulayıb.

Sonra Baş Kadrlar İdarəsinin rəisi, polis general-mayoru Rafiq Abbasov ərazi polis orqanlarında vakant olan zabit vəzifələrinin dövlət ali təhsil müəssisələrini bitirmiş, sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət edən əməkdaşlarla komplektləşdirilməsinə dair Daxili İşlər nazirinin müvafiq tapşırığına əsasən, görülmüş işlər barədə məruzə edib. O, qeyd edib ki, sözügedən tapşırığın icrası ilə əlaqədar olaraq aidiyyatı əməkdaşların şəxsi işləri öyrənilib, dövlət ali təhsil məktəblərinə qəbul zamanı yüksək bal toplayaraq əyani təhsil almış, xidmətdə müsbət xarakterizə olunan 199 əməkdaşın bilik və fiziki hazırlıq səviyyəsi yoxlanılıb.

İmtahanların nəticəsinə görə daha üstün olan 36 nəfərin seçildiyi, həmin əməkdaşların istəkləri və iş yerləri nəzərə alınmaqla orta rəis heyəti vəzifələrinə təyin olunduqları diqqətə çatdırılıb.

Daha sonra nazirliyə dəvət edilmiş əməkdaşların zabit vəzifələrinə təyin olunmaları barədə Daxili İşlər nazirinin müvafiq əmri elan edilib.

Tədbirə yekun vuran nazir V.Eyvazov gənc zabitləri təbrik edərək onlara tapşırıq və tövsiyələrini verib. Qeyd olunub ki, bu gün uğurla davam etdirilən cinayətkarlıqla qətiyyətli mübarizə, ölkəmizdə sabitliyin təmini, insan və vətəndaş hüquq və azadlıqlarının nümunəvi qorunması kursu daxili işlər orqanlarının da üzərinə böyük və məsul vəzifələr qoyur.

Daha sonra Daxili İşlər naziri müstəqilliyin ilk illərində baş vermiş gərgin ictimai-siyasi proseslər, ölkəmizdə yaranmış vətəndaş qarşıdurması, Ermənistanın təcavüzü, partiya mənsubiyyətinə, şəxsi sədaqətinə görə daxili işlər orqanlarına çoxsaylı təsadüfi, səriştəsiz şəxslərin qəbul edildiklərini, kriminogen durumun nəzarətdən çıxması, xalqın təkidilə ulu öndər Heydər Əliyevin ali hakimiyyətə qayıdışından sonra cəmiyyət həyatının bütün sahələrində, o cümlədən hüquq-mühafizə fəaliyyəti sahəsində də köklü hüquqi-demokratik islahatların həyata keçirildiyini xatırladıb.

Bildirilib ki, ümummilli liderin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkəmizin qüdrətlənməsi, vətəndaşlarımızın rifah halının yaxşılaşması üzrə həyata keçirdiyi davamlı tədbirlər Daxili İşlər Nazirliyi sistemində də fəaliyyətin beynəlxalq standartlar səviyyəsində qurulmasında əhəmiyyətli rol oynayıb.

Nazir vətəndaşlara xidmətin şərəfli bir vəzifə olduğunu, hüquq-mühafizə, o cümlədən daxili işlər orqanlarının gərgin səyləri hesabına respublikamızda əmin-amanlığın yaradıldığını, cəmiyyət həyatının bütün sahələrində müşahidə edilən hərtərəfli inkişafın əsasında möhtərəm dövlət başçımızın qeyd etdiyi kimi, məhz sabitlik amilinin dayandığını, bu istiqamətdə əldə olunmuş uğurların hər zaman yüksək qiymətləndirildiyini nəzərə çatdırıb.

Cənab Vilayət Eyvazov gənc zabitlərə çətin və şərəfli xidmətlərində uğurlar arzulayıb, polis adını uca tutmalarını, daim bilik və təcrübələrini artırmalarını, öz üzərlərində işləmələrini, ən müasir informasiya texnologiyalarına yiyələnmələrini, vətəndaşların müraciətlərinə həssaslıqla və operativ şəkildə yanaşmalarını, fəaliyyətlərində peşəkar həmkarlarının təcrübəsindən yararlanmalarını tövsiyə edib.

O, əmin olduğunu bildirib ki, onlar bu yöndə səylərini əsirgəməyəcək, dövlətçiliyə, anda sədaqətlə xidmət edəcək, göstərilmiş etimadı layiqincə doğruldacaqlar.



*Əvvəli 1-ci səhifədə.*

Sonra fransalı diplomata müstəqilliyin ilk illərində ölkəmizdə cərəyan edən gərgin ictimai-siyasi hadisələr, xalqın tələbilə ulu öndər Heydər Əliyevin ali hakimiyyətə qayıdışı, onun rəhbərliyi altında həyata keçirilən köklü hüquqi-demokratik və sosial-iqtisadi islahatlar, cinayətkarlıqla qətiyyətli mübarizə, sabitliyin bərpası, kriminogen durumun nəzarətə götürülməsi barədə məlumat verilib, ölkəmizin Avropaya inteqrasiya etdiyi, demokratik prinsiplərə söykənən, polisin fəaliyyətini tənzimləyən yeni qanunlar qəbul olunduğu, bu işdə bir sıra inkişaf etmiş dövlətlərin, beynəlxalq təşkilatların, o cümlədən fransalı mütəxəssislərin böyük rolu olduğu, həmin qanunların icrasının mühüm əhəmiyyət kəsb etdiyi bildirilib.

Daxili İşlər nazirlikləri arasında mövcud əlaqələrdən söz açan nazir V.Eyvazov bu əməkdaşlığın, əsasən, Fransanın daxili təhlükəsizlik məsələləri üzrə ölkəmizdə akkreditə olunmuş regional attaşesi vasitəsilə həyata keçirildiyini, ölkəmizə səfərləri zamanı qarşılıqlı faydalı işbirliyinə dair onlarla dəfələrlə müzakirələr aparıldığını xatırladıb. Bu əməkdaşlıq çərçivəsində müxtəlif illərdə Bakı şəhərində keçirilmiş təlimlərdə daxili işlər orqanlarının ümumilikdə 57 əməkdaşı iştirak edib. Əməkdaşlığın davamı olaraq, cari il noyabrın 11-də Bakıdan başlayan, hazırda Tbilisi şəhərində davam edən "Narkotik vasitələrə qarşı mübarizədə nəzarətli çatdırma" adlı praktik təlimdə ölkəmizin müvafiq dövlət orqanlarının əməkdaşlarından ibarət heyətin də iştirak etdiyi qeyd olunub.

Cənab V.Eyvazov "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Fransa Respublikasının Daxili İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş" layihəsinin hazırlanaraq müvafiq dövlət orqanları ilə razılaşdırıldıqdan sonra qarşı tərəfə təqdim olunması üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə göndərildiyini, həmin sənədin imzalanmasının əlaqələrin daha da inkişafına əlverişli hüquqi zəmin yaradacağına əminliyini ifadə edib.

Azərbaycanın sabitliyin və təhlükəsizliyin uzun illər ərzində etibarlı qorunduğu və bunun məntiqi nəticəsi olaraq beynəlxalq tədbirlərin mütəmadi keçirildiyi ölkələrdən biri olduğunu nəzərə çatdıran nazir bununla yanaşı, tək respublikamızın deyil, dünyanın bir çox dövlətlərinin narahatlığına səbəb olan terrorçuluğun, ekstremizmin, narkotiklərin qanunsuz dövriyyəsinin, insan alverinin, qanunsuz miqrasiyanın, kibercinayətkarlığın və digər transmilli cinayətlərin təhlükəsinin hələ də real olduğunu, belə qlobal xarakterli təhlükələrlə mübarizədə səylərin birləşdirilməsinin zəruriliyini vurğulayıb.

Səfir Zakari Qros səmimi qəbula və ətraflı məlumata görə təşəkkür edib, ölkəmizdə tolerantlıq mühitinin, multikultural dəyərlərin hökm sürməsindən məmnunluğunu, fəaliyyəti dövründə ikitərəfli əlaqələrin daha da inkişafı üçün səylərini əsirgəməyəcəyini bildirib.

Görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə olunub.

## VƏTƏNDAŞLARIN QƏBULU VƏ ONLARIN MÜRACİƏTLƏRİNƏ BAXILMASI İŞİ DAXİLİ İŞLƏR NAZİRLİYİ RƏHBƏRLİYİNİN DAİM DİQQƏTİNDƏDİR

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov respublikanın müxtəlif bölgələrində, o cümlədən Bakı şəhərində müraciət edən şəxslərin qəbulunu keçirir.

Belə ki, noyabrın 9-da - Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü general-polkovnik V.Eyvazov Daxili İşlər Nazirliyində növbəti vətəndaş qəbulunu keçirərək müraciət etmiş 23 paytaxt sakini ilə görüşüb.

Nazir daxili işlər orqanlarının cinayətkarlıqla mübarizə, ictimai təhlükəsizliyin təmini və digər sahələrdəki fəaliyyəti ilə bağlı onların üzləşdikləri problemləri dinləyib, qaldırdıqları məsələlərin operativ şəkildə, mövcud qanunvericiliyə uyğun həlli üçün aidiyyatı baş idarə və xidmət rəislərinə konkret tapşırıqlar verib. Müraciətlərin böyük əksəriyyəti elə yerindəcə öz həllini tapıb.

Qeyd edək ki, cari ilin son 3 ayı ərzində nazir Vilayət Eyvazov qəbul üçün müraciət edən 90 nəfər Bakı şəhər sakinini Daxili İşlər Nazirliyində qəbul edərək onları şəxsən dinləyib və problemlərinin həlli üçün müvafiq tapşırıqlar verib.

Hər belə qəbuldan sonra vətəndaşlar yerlərdə dövlət məmurlarının onlarla görüşməsi, müraciətlərinə, ərizə və şikayətlərinə operativ, həssaslıqla yanaşılması barədə dövlət başçısının məlum tapşırığının yüksək səviyyədə icrasına, problemlərinə hər zaman xüsusi diqqət və qayğı göstərilməsinə görə ölkə Prezidentinə minnətdarlıqlarını bildiriblər.

## VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

**Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov tərəfindən 2019-cu il noyabr ayının 30-da Sumqayıt Şəhər Polis İdarəsində Sumqayıt, Abşeron, Qobustan, Qubadlı, Zəngilan şəhər və rayonlarının sakinlərinin qəbulunun keçirilməsi nəzərdə tutulmuşdur.**

**Vətəndaşlar daxili işlər orqanlarının əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə qəbula yazıla bilərlər.**

**Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.**

Azərbaycan Respublikası Daxili İşlər nazirinin birinci müavini, polis general-mayoru Seyfulla Əzimov tərəfindən 2019-cu il noyabr ayının 23-də Göyçay Rayon Polis Şöbəsində Göyçay, Mingəçevir, Ağsu, Şamaxı, İsmayıllı, Yevlax, Ucar, Kürdəmir, Ağdaş şəhər və rayonlarının sakinlərinin qəbulunun keçirilməsi nəzərdə tutulmuşdur.

Vətəndaşlar daxili işlər orqanlarının əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə qəbula yazıla bilərlər.

Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

## DAXİLİ İŞLƏR NAZİRLİYİNİN VƏ BAŞ PROKURORLUĞUN MƏTBUAT XİDMƏTLƏRİNİN MƏLUMATI

Bəzi kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə guya 8-ci sinif şagirdinin atasının sifarişi ilə əmisi tərəfindən qətlə yetirildiyini əks etdirən videogörüntülər yayılmışdır.

Həmin məlumatlar həqiqəti əks etdirmədiyindən təkzib olunur.

Belə ki, cari il oktyabrın 8-də Gəncə şəhərində şəhər sakini Məhərrəm Siratinin qeyri-rəsmi nikah münasibətində olduğu şəhər sakini Natavan Mustafayevaya qısqanclıq zəminində bıçaqla çoxsaylı zərbələr endirərək onu qəsdən öldürməyə cəhd etməsinə şübhələr üçün əsaslar müəyyən edilmişdir.

Faktla bağlı Gəncə Şəhər Prokurorluğunda Cinayət Məcəlləsinin 29, 120.1-ci (qəsdən adam öldürməyə cəhd) maddəsi ilə cinayət işi başlanmış, müvafiq ekspertizalar təyin olunmuş, eləcə də əməliyyat tapşırıqları və müvafiq sorğular verilmişdir.

Məhərrəm Sirati təqsirləndirilən şəxs qismində cəlb edilərək Cinayət Məcəlləsinin qeyd olunan maddələrində nəzərdə tutulan ittiham elan edilməklə barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilmişdir.

İctimaiyyətdə yanlış fikrin formalaşdırılmasına xidmət etməklə cəmiyyətdə geniş ajiotaja səbəb olmuş həmin videogörüntünü sosial şəbəkələr vasitəsilə yayılmasını həyata keçirmiş şəxsin müəyyənləşdirilərək məsuliyyətə cəlb edilməsi istiqamətində həyata keçirilmiş təxirəsalınmaz tədbirlər nəticəsində Şəmkir rayonunun Seyfəli kənd sakini, 21 yaşlı Musa Məmmədov şübhəli şəxs qismində saxlanılmış və barəsində qanunvericiliyə uyğun tədbirlər görüləcəkdir.

*8 noyabr 2019-cu il.*

# MİLLİ DİRÇƏLİŞDƏN KEÇƏN YOL

**Tariximizə "Milli dirçəliş günü" kimi daxil olmuş 17 noyabr günü xalqımızın öz birliyini qorumaq əzminin bariz nümunəsidir. Həmin vaxtlar Bakı təlatümlü dənizi xatırladırdı. Xalqı bir yerə toplayan, onu yumruq kimi birləşdirən isə yaşadığı dövrün illərlə yığılıb qalmış ağrı-acısı, imperiya rəhbərlərinin ölkəmizə qərəzli münasibəti, Ermənistanın torpaqlarımıza, soydaşlarımıza qarşı törətdiyi qəsdlər, vəhşiliklər idi.**

Keçmişin dolaylarında zəngin təbiəti və bol sərvəti, geosiyasi mövqeyi olan Azərbaycan müxtəlif dövrlərdə yadellilərin saysız-hesabsız müdaxilələrinə, basqınlarına məruz qalıb. Elə bu səbəbdən qanlı müharibələr meydanına çevrilən məmləkətimizi qorumaq uğrunda azadlıqsevər xalqımız mübarizə aparmış, yurdu zaman-zaman yadelli işğalçılardan mərdliklə qorumuşdur. Şərqdə ilk demokratik dövlət olan Azərbaycan Demokratik Cümhuriyyətinin bolşevik Rusiyası tərəfindən işğalı isə ağır nəticələr verərək xalqımızı daha 70 il imperiya tərkibində saxlamışdır.

Dayaqları laxlamaqda olan sovet rejimi son nəfəsindəydi. Azərbaycan aşıq şəkildə imperiyanın havadarlıq etdiyi Ermənistanın təcavüzünə məruz qalmışdı. Xalqın səbr kasası daşmışdı. Moskvanın separatçıları müdafiə etməsinə rəğmən respublika rəhbərliyi seyrçi mövqe tutmuşdu. Nəticədə milyonların qəzəbi qarşısıalınmaz sel kimi bütün ölkəni bürüdü. Birlikdə çox güclü, yenilməz olduğunu görən xalqın ürəyindən imperiya xofu silinib getdi. Adamlar soyuq payız günü meydanı üzük qaşı kimi mühasirəyə almış imperiya ordusundan qorxub-çəkinmədən axıradək dözüb dayandı.

Əslində, milli dirçəlişin qaynaqları ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1970-1980-cı illərə gedib çıxırdı. Həmin dövrdə sosial-iqtisadi və mədəni inkişaf nəticəsində azərbaycançılıq məfkurəsi və milli ruh oyanmışdı. Aşıq gözlü ziyalılar daha təqib olunmadan tariximizə, ədəbiyyatımıza dair cəsarətli fikirlərini ortaya qoya bilirdilər.

Tarixin yaratdığı şansı isə şəxsiyyətlərin iştirakı olmadan reallaşdırmaq qeyri-mümkündür. Ümummilli liderimiz 1988-ci ilin sonlarında baş verən proseslər barədə demişdir: ***"O zaman xalq ayağa qalxmış, öz etirazını bildirmişdi. Məhz 1988-ci ildə Dağlıq Qarabağın Azərbaycanın əlindən alınması ilə əlaqədar respublikamızda olan hərəkatlara qarşı Azərbaycanın namuslu, millətini sevən, torpağına sadiq adamları ayağa qalxmış, etiraz səsini qaldırmışdır. Məhz o vaxtlar Azərbaycanda xalq hərəkatı başlamışdı. Bu, müsbət bir haldır. Hesab edirəm ki, Azərbaycan tarixinin dəyərli səhifələridir. Xalqın bu gücündən istifadə etmək lazım idi. Kütlələrlə Azərbaycanı idarə edənlər birləşməli, hamısı bir olmalı idilər. Azərbaycana qarşı bu təcavüzün nə qədər təhlükəli olduğunu dərk etməli, onun qarşısını almalı idilər. Ancaq təəssüf ki, belə olmamışdır".***

Həmin dövrdə respublikamıza rəhbərlik edən şəxslər xalqın etiraz səsini qulaqardına vuraraq, imperiya rəhbərlərinin ətəyindən bərk-bərk yapışmışdılar. Xalq qəzəbinin dalğasında vəzifəyə gəlmək istəyənlər bundan yararlanmağı qət etdilər. Yüksək vəzifə kürsüləri əldən-ələ keçdi, cəmiyyət parçalandı. Meydan hərəkatının köpüklü dalğalarında hakimiyyətə yiyələnmiş adamlar da sonradan xalqın ümidini qırdılar, ölkəni vətəndaş müharibəsi həddinə gətirib çıxardılar. Artıq 1993-cü ilin ortalarında tarixin bir əsrdə bizə verdiyi ikinci şansı itirmək təhlükəsi ilə üz-üzə qaldıq. Həmin günlərdə müdrik xalqımız özünün yetirdiyi ləyaqətli şəxsiyyəti – böyük öndərimiz Heydər Əliyevi yenidən hakimiyyətə dəvət etdi. Həmin vaxtdan xalq adından danışanların iç üzü açıldı, kimin dost, kimin düşmən olması məlum oldu.

Müdrik rəhbərin dəmir iradəsi, gecəli-gündüzlü yorulmaz fəaliyyəti sayəsində dövlət müstəqilliyimiz möhkəmlənərək dönməz inkişaf yoluna qədəm qoydu. Xalqımızın tarixi boyu ərzində yaratdığı milli və mənəvi dəyərlər üzərində dövlətçilik ənənələri baş qaldırdı. Azərbaycanın mənafeləri önə çəkilməklə imzalanan "Əsrin müqaviləsi" ölkəmizi iqtisadi cəhətdən dirçəltməklə qüdrətli dövlətlərin tərəfdaşına çevirdi.

Tarix sübuta yetirdi ki, milli dirçəliş və müstəqillik ayrılmaz məfhumlardır. 17 noyabr 1988-ci ildən keçən milli dirçəliş yolu Azərbaycanı müstəqil, demokratik, hüquqi, dünyəvi bir dövlətə gətirib çıxardı. Xalq ümummilli liderimiz Heydər Əliyev kursunun layiqli davamçısı Prezident cənab İlham Əliyevin ətrafında sıx birləşərək, öz xoşbəxt gələcəyinə doğru inamla addımlayır.

***R.Əliyeva,***
***polis baş leytenantı***

# "BAYRAQ VARLIĞIMDIR, BAYRAQ KİMLİYİM"...

**DİN-in Polis Akademiyasında professor-müəllim heyətinin, polis veteranlarının və kursantlarının iştirakı ilə Dövlət Bayrağı gününə həsr olunmuş tədbir keçirilib.**

**Əvvəlcə ulu öndər Heydər Əliyevin, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**

**Sonra Azərbaycan Respublikasının dövlət himni səsləndirilib və Bayraq gününə həsr olunmuş videoçarx təqdim olunub.**

Tədbiri giriş sözü ilə açan akademiyanın rəisi, polis general-mayoru Nazim Əliyev bu əlamətdar bayram münasibəti ilə iştirakçıları təbrik edib, dövlət bayrağının hər bir Azərbaycan vətəndaşının qürur mənbəyi, müstəqil dövlətimizin qüdrətinin rəmzi olduğunu, Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyevin Azərbaycanda Dövlət Bayrağı Gününün təsis edilməsi barədə sərəncamının gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi baxımından mühüm əhəmiyyət kəsb etdiyini xüsusi vurğulayıb.



İstefada olan polis general-mayoru Rəsul Rəsulov 9 Noyabr-Dövlət Bayrağı Gününü xalqımızın həyatında ən əlamətdar və müqəddəs bayramlardan biri adlandırıb. Deyib ki, bayraq-tariximiz, keçmişimiz, bu günümüz və müqəddəs dövlət rəmzimizdir.

O deyib ki, Azərbaycan xalqı zaman-zaman öz azadlığı və müstəqilliyi uğrunda fədakar mübarizə aparıb, canı, qanı hesabına öz müstəqil dövlətini qurub, öz üçrəngli bayrağını ucaldıb. Bu gün cümhuriyyət yaşıdı bayrağımız ümummilli liderimiz Heydər Əliyevin həyata keçirdiyi uzaqgörən və müdrik siyasət nəticəsində dünyanın müxtəlif mötəbər və nüfuzlu beynəlxalq təşkilatlarında, elm, mədəniyyət mərkəzlərində müstəqil bir dövlətin varlığının təcəssümü kimi iftixarla dalğalanır.

İstefada olan polis general-mayoru Ramiz Nağıyev çıxışında bayrağımızın millətin varlığının, mövcudluğunun sübutu, müstəqil dövlət qurmaq və ona sahib çıxmaq bacarığının əsas göstəricilərindən biri olduğunu diqqətə çatdırıb.

O, keçirilən tədbirlərdə veteranların unudulmadığını, onların təcrübəsindən yararlanmaq üçün DİN rəhbərliyinin təşəbbüsünü məmnunluq hissi ilə qeyd edib və kursantlara xidməti fəaliyyətdə təşəbbüskar, kreativ və yenilikçi olmağı arzulayıb.

DİN-in Veteranlar Şurasının sədri, təqaüddə olan polis polkovniki Fərhad Süleymanov, tarixçi alim, təqaüddə olan polis polkovniki Tahir Behbutov bayrağımızın keçdiyi tarixi inkişaf yolundan danışıb, kursantları dünyanın harasında olursa-olsun elmdə və idmanda əldə etdikləri nailiyyətlərlə bu müqəddəs bayrağı daim ucalara qaldırmağa çağırıblar.



İlkin Qolçini veteranlara Akademiyanın bütün tədbirlərində fəal iştirak etdiklərinə görə minnətdarlığını bildirib, onların verdiyi bütün tövsiyələri yerinə yetirəcəklərinə kursant yoldaşları adından söz verib.

***H.Təmirov,***
***polis mayoru***

# XİLASKARI YAXINDAYDI...

**Ölkədəki sabitliyin, əmin-amanlığın təmin olunması, vətəndaş məmnunluğunun, bizlərə-daxil işlər orqanlarına olan etibarının, inamının daha da artırılması qarşımızda duran əsas vəzifə və tələblərdəndir. Bütün bunlarla yanaşı xilaskarlıq missiyasının da öhdəsindən layiqincə gəlirik. Redaksiyamıza daxil olan çoxlu sayda minnətdarlıq məktubları deyilənlərin sübutudur.**

"Əlində bir kağız parçası məndən qələm istədi. Ad, soyadımı soruşdu və nəsə yazdı. Ondan bunu nə üçün etdiyini soruşanda DİN rəhbərliyinə təşəkkür məktubu ünvanlamağı özünə mənəvi borc saydığını bildirdi."



Bu sözləri həyatını itirmək təhlükəsi ilə üzbəüz qalmış Vətən torpağı uğrunda döyüşlərdə əlil olmuş Mehralı Kazımovun həyatını xilas edən Baş Mühafizə İdarəsi Xəzər RMİ-nin mülki mühafizə xidməti üzrə mühafizəçisi Anar Süleymanov dedi.

Hadisə isə belə baş verib. Oktyabrın ortaları, saat təxminən 17:45 radələriydi. Anar postu təhvil almaq məqsədilə inzibati binaya baxış keçirirmiş. Məhkəmə zalından çıxan iki nəfərdən birinin halının pisləşdiyini görüb. Sən demə, o, yüksək təzyiqdən əziyyət çəkirmiş. Elə bu an, necə deyərlər, şərqarışan vaxtı təzyiqi qalxan Mehrəli huşunu itirərək yerə yıxılıb. Anar dərhal vəziyyətə müdaxilə edib və xəstəyə ilkin tibbi yardım göstərib. Əvvəlcə boynunu, üzünü, sinəsini sərin su ilə silib. Bədəninin buz kimi olduğunu görüb əllərini, ayaqlarını ovuşdurub. Xırıltı səsini eşidəndə isə ağzını açaraq dilinin qatlanmasının qarşısını alıb. Eyni zamanda ətrafdakılardan aptekə gedib dərman almalarını xahiş edib.

Bir az sonra Mehrəli Kazımov özünə gəlib.

Xəzər Rayon Mühafizə İdarəsinin rəisi, polis polkovniki Sabit Əliyev də onun haqqında müsbət fikirdədir. O, Anarın şəxsi keyfiyyətlərinə görə fərqləndiyini, vəzifə borcuna məsuliyyətlə yanaşdığını, xidməti dərslərdə fəal olduğunu və bu səbəbdən də Rayon Məhkəməsindəki məsul postda xidmətə məhz onun cəlb olunmasını bildirdi. İdarə rəisi bunu təlim-tərbiyə sahəsində düzgün aparılan işin nəticəsi kimi qiymətləndirir, gənc əməkdaşlara örnək olduğunu hesab edir.

***Yeri gəlmişkən, Anar Süleymanov 13 oktyabr 1986-cı ildə Bakıda anadan olub. 2007-ci ildən daxili işlər orqanlarında xidmətdədir.***

***Teymur Əlizadə,***
***polis kapitanı***

# HÜQUQİ DÖVLƏT, ALİ QANUN

**Hər bir ölkənin konstitusiyası dövlətin mühüm atributu olaraq, onun üzün illər boyu üçün tutacağı mövqeyi müəyyənləşdirir. Həmçinin dövlətin konstitusiyası onun nə dərəcədə demokratik olduğunun, insan hüquq və azadlıqlarına nə dərəcədə təminat verdiyinin göstəricisidir.**




1918-1920-ci illərdə 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti dövlətin Əsas Qanununu qəbul edə bilməmişdi. Beləliklə, Azərbaycan Respublikasının Konstitusiya quruluşunun tarixi, əsasən, SSRİ-nin tərkibində olduğu dövrə düşür.

Ölkəmiz müstəqilliyinə qovuşduqdan sonra olduqca çətin şəraitdə, siyasi-hüquqi, sosial-iqtisadi vəziyyətin ağır olduğu bir dövrdə ölkənin ali hüquqi qüvvəyə malik sənədini-Konstitusiyasını hazırlamaq, özü də müxtəlif siyasi qüvvələrin təsirindən azad, demokratik dəyərlərə əsaslanan, xalqın iradəsini tam əks etdirən bir formada qəbul etmək olduqca çətin idi. Azərbaycan Respublikası Konstitusiyasının hazırlanması və qəbul edilməsi xalqımızın ümummilli lideri Heydər Əliyevin gərgin əməyi və siyasi uzaqgörənliyi nəticəsində mümkün oldu. Məhz 1994-cü ildə ümummilli lider Heydər Əliyevin sədrliyi ilə Konstitusiya komissiyası işə başladı və layihə ümumxalq müzakirəsinə verildi.

1995-ci il noyabrın 12-də ümumxalq referendum ilə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul olundu.

Konstitusiya dövlət və xalq arasında ən mühüm ictimai münasibətləri tənzimləyən, konstitusyon quruluşun, dövlət hakimiyyəti təşkilinin əsaslarını özündə əks etdirən ali qanunudur. Digərlərindən fərqli olaraq, konstitusiyanı ona görə "Əsas qanun" adlandırırlar ki, o, ictimai həyatın bütün sahələrini əhatə edən münasibətləri nizama salır, cəmiyyətdə siyasi sabitliyin, ümumi maraqların təminatçısı kimi çıxış edir, dövlətin statusunu, fəaliyyət konsepsiyasını, gələcək prioritetlərini əks etdirir, şəxsiyyət, cəmiyyət və dövlət arasında münasibətlərin sivil qaydalarını müəyyən edir.

Konstitusiyada demokratik təsisatlar, hüquqi dövlətin atributları, hakimiyyət bölgüsü, insan hüquq və azadlıqları və onların təminatı kimi mütərəqqi müddəalar öz əksini tapmışdır.

Dövlət müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, hamının layiqli həyat səviyyəsini təmin etmək, ümumbəşəri dəyərlərə sadiq qalaraq digər xalqlarla dostluq, sülh, əmin-amanlıq şəraitində yaşamaq kimi ülvi niyyətlərin bəyan edilməsi konstitusiyamızın demokratik dəyərlərini əks etdirir.

Bu gün ölkəmizdə qanunun aliliyi təmin olunub, demokratiya inkişaf edir, dövlət və cəmiyyəti tənzimləyən hüquqi baza yaradılıb ki, hər bir hüquqi və demokratik dövlət üçün ilkin və əsas şərt hesab olunan hakimiyyət bölgüsü prinsipini reallaşdırmaq üçün ardıcıl islahatlar həyata keçirilir.

***Aytəkin Nəcəfova,***
***polis polkovnik-leytenantı***

# MARAQ DÜNYASI

## PORTRETLƏRİN SİRRİ AÇILIR

***1800-cü illərdə Misirin Fayum şəhərində tapılan və alimlər üçün böyük maraq kəsb edən, qiyməti 1,6 milyard dollara çatan mumiya portretlərinin sirri açılır. Arxeoloqlar bu portretlərdə kimlərin təsvirinin olduğu məsələsini dəqiqləşdirmək üçün tədqiqatlar aparırlar.***

Tədqiqatlar zamanı alimlər, ilk növbədə, qədim Misir heykəllərində insan fiqurlarının burunlarının qırıq olmasına aydınlıq gətirmək istəyirlər. Professor Mari Svoboda bu sirləri açmağa cəhd göstərib. O, bu məqsədlə Los-Ancelesdəki Getty Muzeyində olan 16 eksponat üzərində araşdırmalar aparıb.

Portretlərdə irigözlü mumiyalanmış insan təsvirləri eramızın 100-250-ci illərinə aid edilir. Svoboda onları təhlil edərək belə qənaətə gəlib ki, əsərlər Qərbdə təsviri sənət ənənələrinə ciddi təsir göstərib. Belə ki, həmin portretlərdə insanların həyat tərzi, fərdiləşmə elementləri, matəm ab-havası və rəssamlıq üslubu Yunan-Roma və klassik dünya rəssamlığının əsasını qoyub.

Misir xəzinəsi ABŞ-a aparılmış bu sənət əsərlərindən 1 milyard dollar gəlir əldə edəcək. Onların bəzi sirləri açılsa da, bir çoxu hələ də müəmma olaraq qalır. Burada maneələr də yaranıb: portretlərin bir çoxu mumiyalardan qoparıldığında yırtılıb, yaxud onların keyfiyyəti çox aşağı olub.



Təsvir olunan insanların Roma və ya Misir mənşəli olmasını da müəyyən etmək çətindir. Belə ki, portretlərin bir çoxu Misirin Roma imperiyasının əsarəti altında olduğu illərdə çəkilib. Bütün bu məsələləri aydınlaşdırmaq məqsədilə APPEAR dünyanın ən tanınmış alimlərini bir araya gəlməyə dəvət edib. Tədqiqatlar zamanı ultrabənövşəyi işıqlandırma, infraqırmızı şüalardan, radioqrafiyadan da istifadə olunur. O da qeyd olunur ki, bu cür portretlərdən birinin hərrac qiyməti 1 milyon dollara yaxındır.

İki min il tarixi olan portretlər Misirə ticarət yolu ilə Avropadan gətirilmiş çökə ağacından olan lövhə üzərində işlənilib. Alimlər həmin təsvirlərin cəmiyyətdə yüksək statusu olan adamlara məxsus olduğu qənaətindədirlər.

Mumiya portretlərində insanların həyatda olduğu və ya ölümündən sonra təsvir edilməsi məsələsi də tədqiq edilir. Həmin insanların əksəriyyəti 20-40 yaş arasında olanlardır.

***Ə.Ruhiyyə***

# DAHİ ŞAİRİN XATİRƏSİNƏ HƏSR OLUNMUŞ TURNİR

**Bu yaxınlarda dahi şair və mütəfəkkir İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə Azərbaycan Texniki Universitetinin idman zalında Dövlət Gömrük Komitəsi İdman Sağlamlıq Mərkəzinin "Gömrükçü" klubunun çerlidinq üzrə açıq turniri keçirilib. Yarışda 6 komandadan 300-dən artıq idmançı mübarizə aparıb.**




Uşaqlar və yeniyetmələrin mübarizə apardıqları birincilikdə idmançılar çir pom fristayl, çir caz, çir şou, çir dans növlərində qüvvələrini sınayıblar.

Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətinin təmsilçiləri üçün də bu yarış uğurlu olub.

Turnirdə iştirak edən gimnastlarımız öz bacarıqlarını nümayiş etdirib, böyük ustalıqla ən çətin hərəkətləri yerinə yetiriblər.

Yekuna görə bu yarışda təmsilçilərimizdən yeniyetmələr arasında çir pom fristayl üzrə Mədinə Həsənli və Ramina Vəlixanlı bürünc medallar qazanıblar.

Uşaqlar arasında isə Zümrüd Məmmədova və Yasmin Əliyeva çir pom fristayl üzrə qızıl, çir caz üzrə isə üçüncü pillədə qərarlaşıblar.

Komandamızı bu yarışa Azərbaycan Çerlidinq Federasiyasının Prezidenti, əməkdar məşqçi, idman ustası Alla Vlasova hazırlayıb.

Gimnastları qəbul edən DİN İdman Cəmiyyətinin sədri, polis polkovniki Zemfira Meftaxetdinova bildirib ki, qaliblər arasında polis əməkdaşlarının övladları da var. Asayişin, sabitliyin keşiyində ayıq-sayıq dayanan həmkarlarımızın övladlarının savadlı, o cümlədən vətənpərvər olmaları, idman arenalarında uğur qazanmaları sevindirici haldır.

Z.Meftaxetdinova belə yarışların təşkilinin gənclərin sağlamlığı, çerlidinq idmanının inkişafı baxımından böyük əhəmiyyət daşıdığını deyib.

*Zeyni Hüseynov,*
*polis leytenantı*

# SƏYYAR XİDMƏT KEÇİRİLƏCƏK

Daxili İşlər Nazirliyinin fəaliyyətinin bütün istiqamətlərində vətəndaşlara yüksək standartlara uyğun xidmətin göstərilməsi üçün zəruri tədbirlər davam etdirilir. Bununla əlaqədar, Naxçıvan Muxtar Respublikasının ərazisində yaşayış yeri üzrə qeydiyyatda olan, lakin paytaxtda və respublikanın digər şəhər və rayonlarında müvəqqəti və ya daimi yaşayan vətəndaşlara şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsi məqsədi ilə 2019-cu ilin noyabr ayının 15-dən dekabr ayının 5-dək Bakı şəhəri, Nərimanov rayonu Mirzəbala Məmmədzadə küçəsi 46 ünvanında yerləşən Naxçıvan Muxtar Respublikasının daimi nümayəndəliyində səyyar xidmət keçiriləcək.

Yeni şəxsiyyət vəsiqəsi almaq və ya dəyişmək istəyən Naxçıvan MR-də yaşayış yeri üzrə qeydiyyatda olan vətəndaşlar hər gün (bazar günləri istisna olmaqla) yuxarıda qeyd olunan unvana müraciət edə bilərlər.

## 2020-ci ilin I yarısı üçün "Mübariz keşikdə"yə- öz qəzetinizə abunə olmağa tələsin!



Çətinə düşəndə, tanımadığımız ünvanı tapmaq istəyəndə öncə Post-Patrul Xidmətinin əməkdaşlarına üz tuturuq, onlar köməyə çatırlar. Barələrində dəfələrlə xoş sözlər eşitmişik.

Qədim Nizami yurdu Gəncədə də onlar işlərinin öhdəsindən layiqincə gəlirlər.

***Şəkildə:** Sıravi polis əməkdaşları Vüsal Bayramov, Sənan Babazadə, Azər İbrahimov, Rəşid Quliyev, Mirməhəmməd Quliyev, Emil Niftəliyev və Elçin Əliyev öz gündəlik vəzifələrini-xidməti borclarını yerinə yetirirlər.*

*Ü.Muradov*

# "Xəzri" sizi gözləyir!




**Qeyd:** 1. "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmətkeçmə haqqında" Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

2. Daxili Qoşunların hərbi qulluqçuları (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş əsaslarla Mərkəzə yollayış almaq hüququna malikdirlər.

3. Bir günlük xərc tək polis əməkdaşı üçün 22,50 manat (iki nəfərlik nömrəni tək tutduqda 37,50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 67,50 manat, özü və 6-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 62,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 90 manat və onlarla birgə 6-12 yaşadək uşağa əlavə yer verildikdə 115 manat təşkil edir.

4. 6 yaşadək uşaqların qalması ödənişsizdir.

5. Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, akvaparkdan, trenajorlardan, mini-futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir. Digər bütün xidmətlər ödənişlidir.

**Daxili İşlər Nazirliyinin "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində standart otaq üçün bir günlük xərcin 2-ci mövsüm üzrə 17 sentyabr 2019-cu il - 31 may 2020-ci il tarixlərə qiymətləri**
**(daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)**

**Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. Mərkəzə "Koroğlu" metro stansiyasından 171 nömrəli avtobusla gəlmək olar.**
**Telefon: (+99412) 554-47-60;**
**Mobil telefon: (+99450) 291-15-51; (+99455) 291-15-51;**
**Faks: (+99412) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**E-poçt: info@khazribaku.az**
**Veb-sayt: www.khazri.mia.gov.az**

| 17 sentyabr 2019-cu il - 31 may 2020-ci il (2 nəfərlik standart otağın güzəştsiz qiyməti : iki nəfər qaldıqda 180 manat, bir nəfər tək qaldıqda 150 manat) | | |
|---|---|---|
| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 22,50 manat | 37,50 manat |
| Onun ailə üzvü (50% güzəştlə) | 45,00 manat | 75,00 manat |
| Polis əməkdaşı ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 25,00 manat | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 90,00 manat | 150,00 manat |
| Valideyni ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 50,00 manat | |
| 12 yaşdan yuxarı şəxsə yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 70,00 manat | |

# DÜNYAYA İŞIQ OLANLAR...

**20 noyabr Ümumdünya Uşaqlar Günü kimi qeyd olunur. Uşaq hüquqlarını müdafiə edən bu beynəlxalq sənəd BMT-nin 20 noyabr 1989-cu ildə keçirilən iclasında 193 ölkənin qərarı ilə qüvvəyə minib.**

**Azərbaycan tərəfindən BMT-nin Uşaq Hüquqları Konvensiyasının ratifikasiya edilməsinin 25 ili tamam olur.**

Ümumdünya Uşaqlar Günü ilə əlaqədar Azərbaycanın İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) 20 oktyabr - 20 noyabr tarixlərini ölkəmizdə "Uşaq hüquqları aylığı" elan edib. Aylığın əsas məqsədi uşaqlara diqqətin artırılması, uşaq hüquqlarının həyata keçirilməsi vəziyyətinin daha da yaxşılaşdırılması, onların problemlərinin ardıcıl həlli, uşaqların fiziki, əqli, mənəvi, əxlaqi və sosial inkişafı üçün lazımi həyat səviyyəsinin təmin olunmasıdır.



Bu münasibətlə dövlət qurumları, qeyri-hökumət təşkilatları, kütləvi informasiya vasitələri və icmalar tərəfindən uşaqların fəal iştirakı ilə uşaq hüquqları mövzusunda müxtəlif tədbirlər, dəyirmi masalar, treninq-seminarlar təşkil olunur.

"Uşaq hüquqları aylığı" ilə bağlı daxili işlər orqanlarının hissə və bölmələrində də tədbirlər keçirilib. Belə ki, peşə hazırlığı dərslərində beynəlxalq konvensiyalar, insan hüquq və azadlıqlarını təbliğ edən, uşaqların təhsil hüququnun pozulması, erkən nikah problemi mövzularında məşğələlər tədris olunub. Bundan başqa, yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquqpozmalarının profilaktikası üzrə görülən işlərin vəziyyəti barədə aidiyyatı təşkilatların nümayəndələri ilə müzakirələr aparılıb.



*T.Əlizadə,*
*polis kapitanı*

# ANONS

Milan şəhərində WFC döyüş növləri üzrə dünya çempionatı keçirilib. 40 ölkədən 400-dən artıq idmançının mübarizə apardığı yarışda DİN-in Maddi Texniki Təminat Baş İdarəsinin əməkdaşı, polis serjantı Fariz Nəbiyev yüksək fiziki və texniki hazırlıq nümayiş etdirib...

*Ətraflı gələn sayımızda.*

# Noyabr ayının 6-dan 12-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən ötən həftə ərzində 124 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 67 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 136, o cümlədən, borclu şəxs qismində axtarışda olan 87 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 12 ağır yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 13 nəfər ölmüş, 8 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 58 fakt müəyyən edilmişdir.

Nazir Vilayət Eyvazov və DİN Kollegiyasının üzvləri Bakı Şəhər Baş Polis İdarəsinin rəisi Mirqafar Seyidova qardaşı
**MİRƏLƏSGƏR SEYİDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş Cinayət Axtarışı İdarəsinin rəisi Arzu Daşdəmirov və şəxsi heyəti Mirqafar Seyidova qardaşı
**MİRƏLƏSGƏR SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş Kadrlar İdarəsinin rəisi Rafiq Abbasov və şəxsi heyəti Mirqafar Seyidova qardaşı
**MİRƏLƏSGƏR SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Katibliyinin rəisi Səfər Əliyev və şəxsi heyəti Mirqafar Seyidova qardaşı
**MİRƏLƏSGƏR SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi Elçin Həsənov və şəxsi heyəti Mirqafar Seyidova qardaşı
**MİRƏLƏSGƏR SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş Əməliyyat və Statistik İnformasiya İdarəsinin rəisi Elşən Kazımov və şəxsi heyəti Mirqafar Seyidova qardaşı
**MİRƏLƏSGƏR SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Nəqliyyatda Baş Polis İdarəsinin rəisi Emin Şəkinski və şəxsi heyəti Mirqafar Seyidova qardaşı
**MİRƏLƏSGƏR SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş İctimai Təhlükəsizlik İdarəsinin rəisi Oqtay Kərimov və şəxsi heyəti Mirqafar Seyidova qardaşı
**MİRƏLƏSGƏR SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Polis Akademiyasının rəisi Nazim Əliyev və şəxsi heyəti Mirqafar Seyidova qardaşı
**MİRƏLƏSGƏR SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

NBPİ Su Nəqliyyatında Polis İdarəsinin rəisi Rövşən Eyyubov və şəxsi heyəti Mirqafar Seyidova qardaşı
**MİRƏLƏSGƏR SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş İnformasiya Kommunikasiya İdarəsinin rəisi Dilqəm Aslanov və şəxsi heyəti Mirqafar Seyidova qardaşı
**MİRƏLƏSGƏR SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Mətbuat Xidmətinin rəisi Ehsan Zahidov və şəxsi heyəti Mirqafar Seyidova qardaşı
**MİRƏLƏSGƏR SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Tibb İdarəsinin rəisi Mahmud Yusifov və şəxsi heyəti Mirqafar Seyidova qardaşı
**MİRƏLƏSGƏR SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Maliyyə-Plan İdarəsinin rəisi Ramil Baloğlanov və şəxsi heyəti Mirqafar Seyidova qardaşı
**MİRƏLƏSGƏR SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şəxsi Heyətlə İş İdarəsinin rəisi Rahib Qarayev və şəxsi heyəti Mirqafar Seyidova qardaşı
**MİRƏLƏSGƏR SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Kriminalistik Tədqiqatlar İdarəsinin rəisi Gündüz Sadıxov və şəxsi heyəti Mirqafar Seyidova qardaşı
**MİRƏLƏSGƏR SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Növbətçi Hissələrin İdarəetmə Xidmətinin rəisi Mirəziz Mirəliyev və şəxsi heyəti Mirqafar Seyidova qardaşı
**MİRƏLƏSGƏR SEYİDOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağsu RPŞ-nin rəisi Fəxrəddin Abbasov və şəxsi heyəti Daxili Təhqiqatlar İdarəsinin əməkdaşı Rza Tağıyevə qardaşı
**NAZİM TAĞIYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Yevlax RPŞ-nin rəisi Elnur Mehdiyev və şəxsi heyəti Rza Tağıyevə qardaşı
**NAZİM TAĞIYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

MÜBARİZ KEŞİKDƏ
qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
Redaktor
CAVİD XASPOLADOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 9.724
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:30